***Azərbaycan Milli Musiqi Günü - Azərbaycanda hər il sentyabrın 18-də qeyd edilən bayram günüdür.***

***Milli musiqimiz öz inkişaf zirvəsinə görə Üzeyir Hacıbəyova borcludur.***

***18 sentyabr. Bu gün xalqımız üçün böyük bayram günüdür. Bu gün dahi Ü.Hacıbəyovun doğum günüdür.Xalqımız bu günü Milli Musiqi Günü kimi qeyd edir. Çünki milli musiqimiz, mədəniyyətimiz öz inkişaf zirvəsinə görə Üzeyir Hacıbəyova borcludur.***

***Ü.Hacıbəyov milli musiqi xəzinəsinə yeni janr və formatlarla zənginləşdirən bir sıra əsərlər, o cümlədən Azərbaycan peşəkar musiqi sənətinin şah əsəri, dünya musiqi xəzinəsinin incilərindən olan dahiyanə "Koroğlu" operasını bəstələyib. O, həm Azərbaycan Xalq Cümhuriyyətini, həm də yeni Azərbaycan Respublikasının Dövlət Himnlərinin musiqisinin müəllifidir.***

**İstəkli oxucu:** Milli Musiqi Günü münasibəti ilə bir-birindən fərqli, könülləri xoş edən, ifa etdiyi musiqilər könül oxşayan, ruha qida verən, zövqü təmin edən, hissləri oyadan, böyük təsir gücünə malik olan nümunəvi bir sənətkarın yaradıcılığına qısa yol edəcəm...

Milli Musiqi günümüz barlı-bəhrəli payız gününə təsadüf olunduğundan, elə sizə bu payız günündə dünyaya göz böyük rəğbətlə alqışlamışdırlar.

Hər hansı muğamı, təsnifi, melodiyanı ifa etmək heç vaxt ona çətin olmamışdır. Odur ki, Şəmsi Kəlbəcərlinin repertuarı həmişə rəngarəng, çoxşaxəli və zəngin olub. Qeyri-adi musiqi yaddaşı daim ona yardımçı olmuş, inkişaf yollarına işıq salmışdır.

O, ilk ifası ilə, bənzərsiz ifası, bal səsi ilə cəmiyyət arasında, el şənliklərində, insanların ürəyində bir ömürlük məskunlaşdı. Şəmsi orta məktəb illərində müxtəlif tədbirlərdə, muğam müsabiqələrində öz istedadını nümayiş etdirmiş və Bakı şəhərinin təşkilatçılığı ilə keçirilən musiqi festifalında doğma yurdu Kəlbəcəri təmsil edərək birinci yerə layiq görülmüşdür.

Yeri gəlmişkən qeyd edim ki, Şəmsi doğulub boya- başa çatdığı, Kəlbəcəri öz adına ləqəb götürmüşdür. Bu da onun vətəninə, yurduna, Kəlbəcərə olan sevgisindən qaynaqlanır.

Bundan qürurlanan valideynləri Şəmsinin bu istedadını bilib onu Tərtər şəhər beşillik uşaq musiqi məktəbinin səs-muğam sinfinə yazdırır.O, burada musiqi məktəbini müvəffəqiyyətlə bitirir. İllər ötür Şəmsi İmanov musiqi təhsilini davam etdirmək qərarına gəlir. O, Asəf Zeynallı adına Bakı Musiqi Texnikomuna (Kollecə) qəbul olur. Şəmsi burada yünü hiss edirsən və nəhayət özün də bütövləşirsən.

Şəmsi müəllimin keçdiyi həyat və sənət yollarına nəzər saldıqca, gələcək nəsillərə örnək bir insanın yüksək insani keyfiyyətlərini görürük. Fərqli xarakteri ilə çoxlarından seçilən bu sənətçi, hər zaman arzularının ardınca gedib. Bu arzular çox zaman əlçatmaz görünsə də onlara çatmaq üçün dolanmac yollarla yürüməkdən yorulmayıb.

Sənətini zirvədə görən Ş.Kəlbəcərli gənc yaşlarından bu günə kimi sənət üçün çalışıb. Odur ki, bu gün o, sənətin ən ali zirvəsini fəth edə bilib.

Mən əminliklə deyə bilərəm ki, Azərbaycan Musiqi Mədəniyyətində mükəmməl fəaliyyəti, əməyi olan Şəmsi Kəlbəcərlinin həyat kredosu dəyişməz olaraq qalacaq...

Əziz oxucu: Soruşa bilərsiniz ki, Şəmsi müəllim haqqında ağızdolusu yazmağımın səbəbi nədir; nədir bu qədər məni bu xoş notlara kökləyən? Məhz bu izaha görə də, yazımın bu yerində bir haşiyəyə çıxmağa məcburam. Yeri gəlmişkən qeyd edim ki, mən Şəmsi Kəlbəcərlini az müddətdir tanıyıram.

Yaxın illər öncə Sənətçinin sənət yollarına, yaradıcılığına səyahətim zamanı onun haqqında sorğu keçirdiyim vaxt, onu tanıyan insanların söylədiyi fikirlərdən , onun vətənpərvər, xalqını sevən, pozitiv ruha köklənən sənətçi, bir sözlə Azərbaycan musiqi səmasının parlaq nümayəndələrindən olduğunun canlı müşahidəçisi oldum. Hətta sənət adamlarının fikrini alan zaman Şəmsi ürəkli müğənnidir söylədilər...

KƏLBƏCƏRDƏN GƏLƏN SƏS...dir dedilər...

Şəmsi elə oxuyur ki, mahnıda onun hissləri, duyğuları həm özünü, həm də dinləyicini tərpədir.

Bunlar insan hissləri, istedadı ilə bağlıdır.

Bütünlükdə Şəmsinin yaradıcılığını izlədikcə, oxuduqlarını dinlədikcə, mənəvi-estetik zövqə sahib oluruq.

Məmnunluqla qeyd edim ki, elə mənim sorğu keçirdiyim zaman sənətkar haqqında müsahibə verənlərin əksəriyyəti onun bu üstün cəhətlərini dilə gətirdilər.Sözün əsl mənasında Şəmsi mahnı oxumağın pərgarı və əsl ifaçısıdır. O, elinə, pərəstişkarlarına, onu sevənlərə nur paylayan ZİYALI müğənnidir söylədilər...

# 18 SENTYABR - MİLLİ MUSİQİ GÜNÜDÜR...

açan, muğam sənətində həm xanəndə, həm də pedoqoq kimi tanınan, muğam ifaçıları sırasında bir- birindən fərqli ifaları ilə könülləri xoş edən, sözün əsl mənasında həyatını sənətinə həsr edən, dəyərli sənətkar Şəmsi İmanov (Kəlbəcərli) haqqında qısa da olsa sizlərə söz açmaq istəyirəm.

Azərbaycan musiqi tarixinin şanlı səhifələrindən boylanan sənətkara diqqətimizi yönəldək. Belə unikal səsə malik bir xanəndədən yazmaq məsuliyyətli qədər də fərəhlidir.

Öz şəxsiyyəti, sənəti ilə cəmiyyətdə dərin sevgi, böyük rəğbət qazanan Ş. Kəlbəcərli həyatı, sənəti, keçdiyi zəngin və şərəfli yaradıcılıq yolu barədə maraqlananlar çox olduğunu nəzərə alaraq monoqrafiyanı meydana gətirməyi lazım bildik. Düşünürük ki, geniş oxucu kütləsi üçün nəzərdə tutduğumuz bu yazı ifaçılar, gənc sənətçilər, musiqi üzrə pedoqoji sahədə çalışanlara maraqlı və gərəkli olacaq...

Şəmsi Kəlbəcərli Azərbaycanın dilbər guşələri, füsunkar gözəllikləri olan Kəlbəcər rayonunun Zivel kəndində, 20 noyabr 1977-ci ildə Kərim İmanovun ailəsində dünyaya göz açıb.

Ailənin ilk və sevimli övladı olan Şəmsi, hələ uşaq ikən musiqiyə maraq göstərmişdir. Şəmsidə musiqi duyumu uşaqlıq illərindən yaranmışdır. Bəlkə də elə ürəyində musiqi toxumlarını əkən də, atası Kərim kişi olmuşdur. Çünki o, körpə vaxtlarından atasının musiqiləri, zümzümələri ilə böyümüşdür. Çox təəssüf ki, övladının ürəyində incəsənət eşqi yaradan, onu musiqi notları ilə böyüdən atası Kərim kişinin ömrü, övladının bu sahədə nail olduğu uğurların şahidi olmağa yetmədi.

Atasını itirən müğənni həyatın sərt üzü ilə üz-üzə qaldı. Özündə güc toplayıb ayağa qalxan gənc müğənni ilk addımlarını böyük səhnəyə atdı. Şəmsi Kəlbəcərli hələ gənclik illərindən el şənliklərində, toylarda zamanın tələbinə uyğun olaraq, xanəndə kimi çıxış edərək sevimli ifaçı kimi qarşılanmışdır. Tamaşaçı onun oxuduğu dəstgahları, muğamları, təsnifləri, aşıq havalarını həmişə

Respublikanın xalq artisti, professor Arif Babayevdən dərs alır, muğamın sirlərinə yiyələnir.

Şəmsi Kəlbəcərli burada fəal, özünə qarşı tələbkar tələbə olaraq ustad Arif Babayevin dərs dediyi sinifdə muğamın sirlərinə bələd olmuş, özü də bu janra aid araşdırmalar edərək çox şey əxz etmişdir.

Belə tələbkarlıq təbii ki, hər tələbədə, hər muğam öyrənmək istəyənlərdə olmur, gənc Şəmsidə isə bu üstün cəhətlər olub. Şəmsi uşaqlıqda, gənclikdə istedadı ilə öz nəsil nümayəndələri, yaşıdları, həmkəndliləri, məktəb yoldaşları arasında fərqlənmiş və daim diqqəti cəlb etmişdir.

Qeyd edim ki, Şəmsi İmanov musiqi təhsilini bitirdikdən sonra ilk pedoqoji fəaliyyətə Goranboy rayonunun, Dəliməmmədli şəhər incəsənət məktəbindən başlamışdır.

On ildən çox fəaliyyəti dövründə muğam ifaçılarının yetişməsində böyük əməyi olmuşdur Şəmsi Kəlbəcərlinin. Sənətkarları ustadlar yetişdirirlər halbuki, Şəmsi Kəlbəcərli bu gün özü mahir bir PEDOQOQDUR...

Sənətə ilk qədəmlərindən o, müntəzəm öz üzərində işləmiş, həmişə axtarışda olaraq ifa qabiliyyətini və biliyini zənginləşdirmişdir. Bəli Şəmsinin oxuduğu mahnılarda coşqun ruhun daşqınlıqları da vardır.

Doğrudan da yaxşı mahnı oxumaq asan başa gəlmir, burada böyük istedad, incə, həssas duyum, yüksək peşəkarlıq tələb olunur. Şəmsi müəllim həqiqətən də çox yaxşı mahnı ifaçısıdır.O, hansı mahnını oxuyursa, mahnını yaradır, ona öz imzasını qoyur, və öz üslub, sənət möhürünü vurub.

Onun ifaları insan qəlbinin dərinliklərinə qədər işləyir.Burada zərif, kövrək duyğularla bahəm coşqun hisslər, incə nəfəslər, xırdalıqlar, zəngulələr, boğazlar tamaşaçıları, dinləyiciləri cəlb edir və öz təsiri altına salır.

Şəmsinin sənətinə diqqətlə enişdəndə qəlbinin səsini açıq-aydın duyursan, bu səsdə, bu ifada onun özünü görüb tapırsan, ürəyin duyursan, bütövlü-

Musiqidə mahnı ən geniş yayılmış janrdır. Mahnı Azərbaycan xalqının ruhunu yaşadan bir məvhumdur, bir vasitədir. Mahnılar xalqın arzuları, istəkləri, düşüncələri, hisslərin tərənnümüdür.Burada sevgi var, təbiət gözəllikləri var, milli dəyərlər, vətənə məhəbbət var.

Şəmsi Kəlbəcərlinin mahnı ifaçılığı çox geniş, çoxşaxəli və çoxjanrlıdır. Bunu bir yazar kimi tək mən yox, əksər sənət adamları da qeyd edirlər.

Xanəndə - pedoqoq Şəmsi Kəlbəcərlinin sənət və həyat yollarından bəhs edən məqaləmizin jurnalımızda yer alması istədik.

Muğam sənətinin və insanlığın parlaq zirvəsində yer alan , sənət aləmində sevilib-seçilən, söz sərrafı, sənət fədaisi, dəyərli sənətkarımız Şəmsi Kəlbəcərli Sizi Milli Musiqi Günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, Sizə sağlıqlı uzun ömür və sənət uğurları arzu edirik!

Bundan sonra tək arzumuz, istəyimiz isə Sizi daim səhnələrdə, tədbirlərdə, el şənliklərində qəlbləri fəth edən ifalarınızla, gülər üzünüzlə görməkdir.

Mənalı ömür yaşayan, sənətini sevən, ona dəyər verən, səsə dinamik boyalar verməklə, bir neçə forma və mərtəbədə şaqrar zəngulələr vurmaqla seçilən Şəmsi Kəlbəcərliyə çoxları həsəd aparır.

Bizimsə dəyərli, nümunəvi sənətkara bir tövsüyəmiz var.

Şəmsi müəllim, -Boğazınızı qoruyun, orda ALLAH əmanəti var...

Muğam sənətində öz dəsti-xətti olan özünəməxsus ifaları, səsi, avazı olan Xanəndə Şəmsi Kəlbəcərlinin qürur duyduğu, fəxr etdiyi oğlu Yusif




İmanov.....

Gəncə şəhərində musiqiçi ailəsində dünyaya göz açan, bu ocaqda vətənpərvər ruhda böyüyüb boya-başa çatan, Həqiqi Hərbi Xidmətini ləyaqətlə yerinə yetirən, Vətən qulluğunda nizam-intizamla dayanan, xidməti zamanı başlayan 44 günlük Vətən müharibəsinin ilk günündən son günündək vətənin müdafiəsinə qoşulan, Vətən müharibəsində fəal iştirakına görə 4 medal qazanan Yusif İmanov Vətən müharibəsi iştirakçısı medalı ilə təltif olunduğu təqdimat zamanı.

Bir dəfə Şəmsi müəllimin sosial şəbəkələrin birində yazdığı yazı diqqətimi çəkdi.Orada yazmışdı ki, Allah hər kəsə belə mərd və vətənpərvər oğul nəsib etsin, fəxr edirəm ki, belə oğul böyütmüşəm.

Doğrudan da Şəmsi müəllim belə oğulla, Yusif kimi oğulla fəxr etməyə dəyər...

Sizin oğlunuz Yusif Müstəqil Azərbaycanın Dövlət mənafeyini müqəddəs tutaraq, torpaqlarımızın bütövlüyü uğrunda öz əsgərlik borcunu ləyaqətlə yerinə yetirib.

Bu da Sizin vətənpərvər və nəcib əməyinizin nəticəsidir.

Şəmsi müəllim, Sizin vətənpərvər valideyn necə deyərlər bir məsuliyyətli, nümunəvi ata olduğunuzdan qürurlanırıq.

Allah Sizi qorusun!

Mənim üçün xalqın mənə göstərdiyi etimaddan və etibardan yüksək mükafat yoxdur.

Vətənə, xalqa nə qədər bağlı olduğumu məni tanıyanlar bilir.

Mən xalqımı çox sevirəm.

Xalqımla qürur duyuram...

18 sentyabr Milli Musiqi Günüdür.

Milli Musiqi Günü münasibəti ilə bütün musiqi aləmində olan əməkdaşlarımı səmimi qəlbdən təbrik edirəm.

***Qənifə TEYMUR QIZı,***
***Milli İrs jurnalının İƏŞ-nin müdiri,***
***AJB-nin üzvü***